*Taxıl biçini*

# Bərəkətli zəmilər

Rayonumuzun iqtisadiyyatında başlıca yeri aqrar sahə tutur. Bu sahə ilə bağlı ölkədə aparılan uğurlu islahatlar Qəbələdə də öz bəhrəsini verir. Dövlətin kənd təsərrüfatı işçilərinə göstərdiyi qayğı, yaratdığı şərait qəbələliləri torpağa ürəkdən bağlayıb.



Bu qayğıdan ruhlanan fermerlər və torpaq istifadəçiləri 2015-ci ilin məhsulu üçün ötən ilin payızında 21.300 hektar sahədə payızlıq taxıl əkmişdir. Bundan 14 min hektarı buğda, 7.300 hektarı isə arpadır. Bugünkü bol məhsulun bünövrəsi hələ ötən ilin payızında qoyulub. Sahələrin şumlanmasında, səpinin aparılmasında aqrotexniki tələblərə ciddi əməl edilmiş, "Aqrolizinq" Qəbələ filialının mexanizatorları torpaq istifadəçilərinin yaxın köməkçisi olmuşdur. Elə buna görə də ötən ildən fərqli olaraq rayon üzrə taxıl zəmilərində bol məhsul yetişdirilmişdir.

İndi bir neçə gündür ki, rayonda taxıl biçini müvəffəqiyyətlə davam edir. Rayonun "Aqroservis" müəssisəsinin mexanizatorları taxıl biçini kampaniyasını tez və itkisiz başa çatdırmaq üçün biçində yaxından iştirak edirlər. Hazırda zəmilərdə 40-dan artıq kombayn işləyir. İndiyədək 7.300 hektar arpa sahəsinin 5 min hektarı biçilmiş və 15 min tondan çox arpa, 500 hektar isə buğda sahəsi biçilmiş, 1.500 tona yaxın buğda istehsal olunmuşdu. Taxıl yığımında və istehsalında "Gilan" MMC-nin, Bayramkoxalı və Kürd kəndlərinin taxılçıları xüsusilə fərqlənirlər. Adı çəkilən təsərrüfatların taxılçıları hər hektardan orta hesabla 30 sentnerdən çox məhsul toplamışlar.

Hələ məhsulu biçilməmiş xeyli sahə var. Həmin sahələrin məhsulunu vaxtından tez toplamaq üçün kombaynların sayı günbəgün artırılır.

Taxılın yanğından mühafizəsi üçün mühüm tədbirlər həyata keçirilmişdir. Belə ki, böyük taxıl sahələrinin ətrafı şumlanmış, yanğından mühafizə avadanlıqları ilə təmin edilmiş, mexanizatorlar təlimatlandırılmışdır.

Taxılı itkisiz toplamaq üçün rayon icra hakimiyyəti tərəfindən komissiya yaradılmışdır. Komissiya üzvləri zəmilərdən taxılın yığılmasına nəzarət edir, hər hansı bir problem yaranarsa onu təcili aradan qaldırırlar.

Ümumiyyətlə, işin gedişi göstərir ki, iyul ayının birinci ongünlüyündə taxıl biçini tam başa çatdırılacaq, keçən ildəkindən fərqli olaraq xeyli çox məhsul əldə ediləcəkdir.

**Elmdar ŞƏRİFOV,**
**rayon icra hakimiyyətinin sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin baş məsləhətçisi.**

*2 iyul—Azərbaycan Polisi Günüdür*

# Polisimiz dövlətimizin etibarlı dayağıdır

**(Əvvəli 3-cü səhifədə).**

2015-ci ilin 5 ayı ərzində Qəbələ rayonunda cinayətkarlığa qarşı mübarizənin vəziyyətinə nəzər salsaq həqiqətən də təqdirəlayiq fəaliyyətdən danışa bilərik. Uçot-qeydiyyat intizamı bir neçə il bundan əvvəlki illərlə müqayisədə xeyli möhkəmləndirilmiş, cinayət və hadisələr barədə daxil olan məlumatların qəbulu və onlara ədalətli baxılması işi yaxşılaşmışdı.

Cari ilin ötən dövründə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində uğurlu nəticələr qazanılmışdı. Belə ki, narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədi ilə 2015-ci ilin müvafiq dövrü ərzində 6 cinayət faktı aşkar edilmiş, dövriyyədən 345,25 qram qurudulmuş marixuana, 13,74 qram tiryək çıxarılmışdır. Bayramkoxalı kəndinin və Nic qəsəbə ərazisində yabanı halda bitmiş kənaf kolları məhv edilmişdir.

Rayonda yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində də müsbət irəliləyişlər əldə olunmuşdu. Keçirilmiş məqsədyönlü profilaktiki tədbirlər nəticəsində əvvəlki illərlə müqayisədə qeydə alınmış yol nəqliyyat hadisələrinin sayı azalmış, yol hərəkəti qaydalarının pozulması hallarına qarşı mübarizə işi gücləndirilmişdir. Şöbədə vətəndaşların şəxsiyyət vəsiqələri ilə təmin olunması işi gündəmdə duran məsələlərdən birinə çevrilib. Qeydiyyatsız yaşayan şəxslərin aidiyyatı üzrə qeydiyyata alınması və seçici siyahılarına salınması daim diqqət mərkəzində saxlanılır.

Qəbələ rayon Polis Şöbəsinin fəaliyyətində əhalidən gələn şikayətlərin, məktubların öyrənilməsi, onların qəbulunun keçirilməsi məsələsinə də xüsusi önəm verilir. Burada daxil olmuş ərizə və şikayətlərə qanunla müəyyən edilən müddətdə baxılaraq müvafiq tədbirlər görülmüşdür. Şöbə rəisinin, o cümlədən aidiyyatı xidmət sahələrinin əməkdaşlarının konkret qəbul saatları var. Bundan əlavə polis şöbəsinin rəisi mütəmadi olaraq rayonun müxtəlif qəsəbə və kəndlərində vətəndaşların səyyar qəbullarında iştirak edir.

Bir məqamı da diqqətə çatdırmaq istəyirəm. Qəbələ Rayon Polis Şöbəsi öz veteranlarını da yaddan çıxarmır. Bütün bayramlarda şöbənin rəisi, polkovnik-leytenant Ehtibar Abduyev polis veteranları ilə şəxsən görüşür, onların vəziyyəti ilə maraqlanır, nə kömək lazımdırsa, hamısını edir. Bir sözlə, elə bir tədbir yoxdur ki, veteranlar yada salınmasın, xatırlanmasın. Onların problemlərinə yüksək diqqət və qayğı ilə yanaşılması bütün polis veteranları tərəfindən böyük razılıqla qarşılanır.

Sonda onu qeyd edirəm ki, operativ fəaliyyət, peşəkar xidmət, xalqa bağlılıq, dövlətə sadiqlik Azərbaycan polisinin əsas xidmət göstəricisidir. İndi Azərbaycan vətəndaşları tam əminliklə "Mənim polisim məni qoruyur"—deyə bilirlər.

**Aslan CƏLİLOV.**

# Təqvimdən sətirlər

**1 iyul:** Görkəmli alim, texnika elmləri doktoru, akademik, Sosialist Əməyi Qəhrəmanı SSRİ Dövlət mükafatı laureatı **Rüstəm İsmayılov** (1909—1972) anadan olmuşdur. Əsas tədqiqatları neft kimyasına və neft emalı texnologiyasına aiddir.

1967—1970-ci illərdə Elmlər Akademiyasının prezidenti, 1950—1954-cü illərdə Bakı Sovetinin sədri vəzifələrində işləmiş, 4 çağırışda Ali Sovetə deputat seçilmişdir. Neft və Kimya İnstitunda dosent, professor, kafedra müdiri vəzifələrində çalışmışdır.

**2 iyul:** 1921-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutu (hazırda Universiteti) yaradılıb.

**3 iyul:** Azərbaycanın görkəmli mütəfəkkiri, yazıçı, tarixçi **Abbasqulu Ağa Bakıxanov Qüdsi** (1797—1847) anadan olub. Tiflis quberniya idarəsində tərcüməçi işləyib, bir sıra diplomatik tədbirlərdə, 1826—1829-cü illərdə Rusiyanın İran və Türkiyə ilə müharibələrində, Türkmənçay danışıqlarında iştirak edib. Polkovnik rütbəsi alıb, qabaqcıl rus və Azərbaycan ziyalıları ilə tanış olub. Bakıxanovun tarixşünaslığa mühüm töhfə olan "Gülüstani-İrəm" əsəri 1841-ci ildə fars, 1926-cı ildə özünün tərcüməsi ilə rus, 1951-ci ildə isə Azərbaycan dilində çap olunub. "Gülüstani-İrəm" Azərbaycan və Dağıstan tarixinin qədim zamanlardan 1813-cü ilədək dövrünü əhatə edir. Əsərdə Qafqaz Albaniyası, Babək hərəkatı, Şirvanşahlar, monqol hücumları, Qaraqoyunlu, Ağqoyunlu dövlətləri və onların Rusiyaya birləşdirilməsi və s. haqqında məlumatlar verilir. Onun şeirləri, dilçiliyə aid əsərləri var. 1847-ci ildə Məkkə yaxınlığında vəfat edib.

**4 iyul:** 1776-cı ildə **ABŞ istiqlaliyyətini elan edib**.

**5 iyul:** Görkəmli ictimai xadim, jurnalist **İsasultan Şaxtaxtinski** (1851—1894) anadan olub.

**6 iyul:** 1940-cı ildə görkəmli dövlət xadimi, Qazaxıstanın Prezidenti **Nursultan Nazarbayev** anadan olub.

1926-cı ildə **Bakı-Sabunçu elektrik dəmir yol xətti açılıb**.

1943-cü ildə görkəmli rus müğənnisi **Tamara Sinyavskaya** dünyaya gəlib, Müslüm Maqomayevin həyat yoldaşı olmuşdur.

**7 iyul:** Xalq artisti, görkəmli kinorejissor **Tofiq Tağızadə** (1919—1998) Bakıda anadan olmuşdur. "Arşın mal alan", "Uzaq sahillərdə", "Dədə Qorqud" və başqa filmləri çəkmiş, tamaşaçı rəğbəti qazanmışdır.

Belarus xalq şairi, SSRİ Dövlət mükafatı laureatı, akademik **Janka Kupala** (1882—1942), alman yazıçısı **Lion Feyxtvanger** (1884—1958) anadan olmuşlar. Lion Feyxtvanger 1933-cü ildə Fransaya mühacirət edib, 1941-ci ildə ABŞ-da yaşayıb. Yaradıcılığa jurnalist kimi başlayıb. Çoxlu romanları var.

**8 iyul:** Görkəmli dilçi alim, Əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı **Əbdüləzəl Dəmirçizadə** 1909-cu ildə Şəkidə anadan olub. Azərbaycan Pedaqoji İnstitunda (hazırki Universitetində) kafedra müdiri vəzifəsində işləmişdir. Orta və ali məktəblər üçün dərsliklər yazıb.

Görkəmli fizik, Sosialist Əməyi Qəhrəmanı, Nobel və SSRİ Dövlət mükafatları laureatı **İqor Tamm** anadan olub. Əsas tədqiqatları kvant mexanikasına, onun tətbiqinə, şüalanma nəzəriyyəsinə, nüvə zərrəciklərinin təsirinə aiddir.

Görkəmli fizik, akademik, Nobel və bir sıra SSRİ Dövlət mükafatları laureatı **Pyotr Kapitsa** (1894) anadan olmuşdur. SSRİ Elmlər Akademiyasının Fizika Problemləri İnstitutunun direktoru vəzifəsində işləmişdir. Atomların maqnit momentinin təyini, ifrat güclü maqnit sahəsinin alınması üçün üsul verib, ifrat axıcılığı kəşf edib.

**10 iyul:** Görkəmli şair və maarifçi **Seyid Əzim Şirvani** (1835—1888) anadan olub. 7 yaşında, atasının ölümündən sonra ana babası Molla Hüseynin yanına, Dağıstanın Yaqsay kəndinə gedir və ilk təhsilini də orada alır. 1853-cü ildə Şamaxıya qayıdıb. Bağdadda, Şamda (Dəməşq) dini təhsil alıb. Misirdə olub, Şamaxıda yeni üsullu məktəb açıb, satirik və lirik şerləri çoxdur.